Təsdiq edirəm
ADMİU-nun rektoru
_________Professor Ceyran Mahmudova
"12" "sentyabr" 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

**7003001 – Aktyor sənəti ixtisasının**

**Dram teatrı və kino aktyoru ixtisaslaşması**

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.**

**BAKI – 2025**

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7003001 – Aktyor sənəti ixtisası (Dram teatrı və kino aktyoru ixtisaslaşması) üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.
1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır: o ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək; o təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək; o təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.
1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.
1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.
1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:
o peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
o müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
o fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
o fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
o fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
o fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
o müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
o istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;

o davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

**Dram teatrı və kino aktyoru ixtisaslaşması üzrə:**

- aktyor sənəti ilə bağlı müxtəlif təlim, nəzəriyyə, metod və sistemləri müqayisəli şəkildə təhlil etmək;
- bu sistemlərin prinsip və üsullarını praktik fəaliyyətə inteqrasiya etmək və konkret metodlara əsasən obrazın dramaturji və psixoloji quruluşunu formalaşdırmaq;
- Stanislavski sisteminin əsas konseptlərini tənqidi yanaşma ilə analiz etmək, bu sistemin çağdaş aktyor sənətində tətbiq imkanlarını müqayisəli şəkildə araşdıraraq, öz ifaçılıq qabiliyyətini dərinləşdirmək;
- psixotexniki elementləri inteqrativ şəkildə tətbiq etmək;
- müxtəlif janr və üslublarda qurulmuş səhnə əsərlərində fərdi ifaçılıq qabiliyyətini inkişaf etdirmək;
- səhnə hərəkətləri və texnoloji vasitələrdən istifadə etməklə kompleks yaradıcılıq modelləri qurmaq və tətbiq etmək;
- dramaturji əsərləri peşəkar səviyyədə təhlil etmək,
- süjet xəttini, konfliktləri, xarakterlərin inkişafını və müəllif ideyasını müəyyənləşdirmək;
- konseptual səviyyədə obrazın mənalandırılmasını təmin etmək və bu prosesi elmi-metodoloji yanaşmalarla əsaslandıra bilmək;
- rolun dramatik və emosional strukturunu müxtəlif metod və sistemlər əsasında araşdırmaq, fərdi obraz interpretasiyası vasitəsi ilə tamaşanın bədii konsepsiyasına töhfə vermək və dramaturji mətnə yaradıcı yanaşmasını əsaslandırılmış şəkildə təqdim etmək;
- mizan və kadrajın tələblərinə uyğun ifadə vasitələrini tətbiq edə bilmək, ifaçılıq texnikasını təkmilləşdirmək;
- obrazın psixoloji inkişafını montaj, kadraj və səs dramaturgiyası ilə əlaqələndirə bilmək;
- film istehsalı prosesində rejissorla və çəkiliş qrupunun digər üzvləri ilə peşəkar əməkdaşlıq qura bilmək;
- davamlı peşəkar inkişafını planlamaq, yaradıcılıq fəaliyyətini qlobal teatr konteksti ilə əlaqələndirmək;
- kollektiv yaradıcılıq prosesində fəal iştirak etmək, aktyor sənətinin etik prinsiplərinə, peşəkar davranış normalarına və hüquqi-əmək münasibətlərinə əməl etmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| İxtisaslaşmaların adları | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Dram teatrı və kino aktyoru | Magistr ali elmi-ixtisas | 1,5 il | 90 |

3.2. Təhsil proqramı ixtisas (ixtisaslaşma) üzrə 90 (1,5 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 2 | ***Layihələrin idarə olunması***<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. 6 Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| 1 | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər**<br><br>***Ali məktəb pedaqogikası və psixologiya***<br>*Ali məktəb pedaqogikası və psixologiyası fənni ali təhsil müəssisələrində tədris-tərbiyə prosesinin elmi əsaslarını öyrədir. Fənnin məzmunu pedaqoji nəzəriyyələrin inkişafını, ali təhsildə müasir təlim metodlarını, tələbə və müəllim münasibətlərini, həmçinin təlimin psixoloji qanunauyğunluqlarını əhatə edir. Tələbələr bu fənn vasitəsilə ali məktəb mühitində tədrisin pedaqoji prinsipləri və psixoloji aspektləri barədə bilik əldə edirlər.* | 6 |
| 2 | ***Müasir dövrdə aktyor sənətinin ifadə prinsipləri***<br>Müasir dövrdə aktyor sənətinin ifadə prinsipləri fənninin tədrisində tələbə aktyorlar əsasən bakalavr pilləsində öyrəndikləri və səhnədə canlandırdıqları peşə vərdişlərinin daha incə və mürəkkəb məqamlarını təkmilləşdirməli, bütün janr və metodikaların incə mahiyyət və xüsusiyyətlərini öyrənməli və peşəyə tətbiqini mənimsəməlidirlər. Tələbə aktyorlar tədris zamanı mükəmməl peşə vərdişlərinə yiyələnməli və nəzəri açıqlamalarını bilməlidirlər. Bu təlimdə "Stanislavski sistemi"nə daha çox üstünlük verilməsinə baxmayaraq, magistr aktyorlara dünya teatrlarında mövcud olan cərəyanlar və metodikalar da aktiv şəkildə öyrədilir. Çünki müasir dövrdə aktyor sənətinin ifadə prinsipləri tam şəkildə tələbələrə tədris edilməlidir. Fənnin əsas məqsədi tələbələrdə müasir aktyor sənətinin ifadə vasitələrini mənimsətmək, onları yeni yaradıcılı şəraitdə uyğunlaşdırmaq, fərdi üslub və estetik baxış formalaşdırmaqdır. | 6 |

| | | |
|---|---|---|
| 3 | **Aktyor sənətinin tarixi və nəzəriyyəsi**<br>Aktyor sənətinin tarixi və nəzəriyyəsi fənni aktyor sənətinin formalaşma mərhələlərini, tarixi inkişaf yolunu və nəzəri əsaslarını öyrənməyə xidmət edir. Tədris prosesi ərzində tələbələr qədim Yunan və Roma teatrından başlayaraq orta əsrlər, renesans dövrü, klassik və müasir teatr məktəblərinə qədər aktyor sənətinin inkişafını araşdırır. Fənnin əsas məqsədi aktyor sənətinin tarix boyu keçdiyi müxtəlif mərhələləri tələbələrə tanıtmaq, teatr nəzəriyyəsi və aktyor məktəbinin əsas prinsipləri haqqında biliklərə yiyələndirməkdir. Stanislavski sistemi, Brextin epik teatrı Meyerxoldun biomexanikası, həmçinin müasir teatr eksperimentləri dərs prosesində nəzərdən keçirilir. Dərslərdə tələbələr yalnız nəzəri biliklərlə kifayətlənməyərək tarixi materialları təcrübi məşğələlərdə tətbiq edir, müxtəlif dövrlərə aid aktyor oyun üslublarını müqayisə edir, öz yaradıcılıq fəaliyyətlərində bu təcrübələrdən istifadə etməyi öyrənirlər. | 6 |
| 4 | **Tamaşa hazırlığı (dramaturji material üzərində iş, məntiqi və psixoloji təhlil)**<br>Magistr yaradıcılıq işi və tamaşa hazırlığı üzrə təhsil alan tələbələrin bakalavr pilləsi üzrə əldə etdikləri bilik və bacarıqlarının keyfiyyət səviyyəsinin daha da təkmilləşdirilməsi ön plana keçir. Magistr yaradıcılıq işi və tamaşa hazırlığı zamanı aktyor sənəti sahəsində öndə gedən dünya xalqlarının mütərəqqi prosesləri, onların ənənələri, forma, üslub xüsusiyyətləri, novator yönümlü istiqamətləri araşdırılaraq təcrübi cəhətdən mənimsənilir. İşin gedişatında tələbə hər hansı bir dramaturji materialın ideyasını, ali məqsədini, janrını, konfliktini, hadisələr xəttini, obrazlar arasındakı qarşılıqlı münasibətləri dəqiqləşdirməyi bacarmalı, təklif edilmiş vəziyyət, əgər ki məfhumu, məntiq və ardıcıllıq, xarakterlilik, əməl xətti kimi yaradıcılıq prinsiplərini əsas tutmalı, rolun psixoloji və hadisəli təhlilini, aktyor ifasının məntiqə əsaslanan zərurətini, aktyorun ifa tərzinə təsir edən janr amilini nəzəri və təcrübi baxımdan mənimsəməlidir. Ədəbi əsər üzərindəki təhlil prosesi 3 dövrü-“stol arxası”, “qurama dekorlarda” və “səhnədə işi” əhatə etməlidir. | 6 |
| 5 | **Müasir teatr cərəyanları (Meyerhold, Brext, Qratovski)**<br>Məqsəd K.S.Stanislavskinin məktəbi əsasında aktyor sənətinin əsaslarının həm nəzəri, həm də təcrübi aspektlərin tələbələrə aşılanmasıdır. Aktyorların səhnədə doğru düzgün üzvi surətdə hərəkət etmələri, iş görmələri, tamaşaçıların onların iş və hərəkətlərinin həqiqiliyinə inanmaları əsas amil kimi götürülür. Aktyorun mexaniki surətdə rejissorun ifadəsinə tabe olmaması, onun təsəvvürünü yerindən oynadan artistlik təxəyyülünün genişləndirilməsi və onun hiss etdirmədən əsl yaradıcılıq yoluna yönləndirilməsi məqsədi fundamental bilik və təcrübələrə yiyələnməsi zəruriliyi vacib məsələ kimi götürülür. Fənnin tədrisi zamanı tələbə aktyor sənətinin metodologiyasını əsas tutaraq çağdaş dünyada bir sıra öndə gedən aktyor sənəti məktəblərinin | 6 |

| | | |
|---|---|---|
| | təcrübəsindən bəhrələnməli və onu sintez kimi öz işinə tətbiq etməyi bacarmalıdır. Onlardan V.Meyerhold, B.Brext, E.Qratovski metodlarına dərindən yiyələnməyi bacarmalıdırlar. | |
| 6 | **Tamaşa hazırlığı (Obraz üzərində iş: Xarakter və obrazların müəyyənləşdirilməsi)**<br>Tamaşa hazırlığı(Obraz üzərində iş: Xarakter və obrazların müəyyənləşdirilməsi) tədrisi zamanı əsasən yaşama, təzahür elementlər və fiziki elementlər vasitəsi ilə rolun bütün parametrlərlə analiz və sintezi prinsipi daha dolğun öyrədilir, aktyor tələbəyə tamaşada hər rolun görmə kinolentinin yaradılmasını, diqqətin məqsədə yönəldilməsini, faktların qiymətləndirilməsini, obrazın xarakterik xüsusiyyətlərinin tapılmasını və tamaşaya tətbiq edilməsini həm praktiki, həm də nəzəri cəhətdən dərindən öyrənilməsi tədris edilir. Eyni zamanda bakalavr pilləsindən sonra magistr pilləsinə keçən aktyor tələbəyə I mərhələdə aldığı biliklərin daha dərin qatlarını aktyor və tamaşaçı münasibətində tamaşaçı ilə energetik bağlantının necə qurulması öyrədilir. Hərəkətin bütövlüyünə nail olmaq daxili və xarici xarakterliliyə yiyələnmək, obrazın bütövlüyünü təmin etmək mütləq sayılır. | 6 |
| 7 | **Kino və televiziyada aktyor işinin xüsusiyyətləri**<br>Bu fənn teatr aktyorluğundan fərqli olaraq kino və televizoya sahəsində ifa prosesinin özünəməxsus cəhətlərini öyrədir. Tələbələr kamera qarşısında oyun texnikasını, emosional vəziyyətin incəliklərlə çatdırılmasını, baxış və mimikanın gücünü, səslə işləməyin fərqli üsullarını mənimsəyirlər. Tədris prosesində kino və televiziya janrlarının tələblərinə uyğun olaraq aktyorun hərəkət miqyası, təbii davranış, montaj və texniki vasitələrlə əlaqə, kadra uyğunlaşma kimi məsələlər praktiki məşğələlərlə öyrədilməlidir. Fənnin məqsədi tələbələri peşəkar ekran sənətinin peşəkar tələblərinə hazırlamaq, onların yaradıcılıq potensialını inkişaf etdirmək və real çəkiliş prosesində inandırıcı ifa vərdişləri formalaşdırmaqdır. | 6 |
| 8 | **Tamaşa hazırlığı (Tamaşanın quruluş planı: ideya, ana xətt və ali məqsədin yoxlanılması, aktyorun yaradıcılıq "başqalaşması")**<br>Tamaşanın quruluş planı tamaşanın layihəsinə əsaslanaraq səhnə əsərindən doğan fikri əks etdirməlidir. Burada həyat materialının mənimsənilməsi işində pyesin ideya yaradıcılıq xüsusiyyətlərinin və müəllifin üslub xüsusiyyətlərinin dərk edilməsi ön plana keçməlidir. Tamaşa hazırlığı(Tamaşanın quruluş planı: ideya, ana xətt və ali məqsədin yoxlanılması, aktyorun yaradıcılıq "başqalaşması") müddətində əsas məqsəd obraz yaratmaq, başqalaşmaq prosesidir. Pyesdə baş verən hadisələrin məkan və zamanını təsəvvürdə oyatmaq üçün əldə edilməsi və onların məqsədəuyğun tərzdə ifa zamanı həyata keçirilməsi əsas götürülür. Tamaşada musiqi, rəqs, qrim, döyüş və s. komponentlərin daxil edilməsi şərti ilə başqalaşma prosesi səhnədə öz dolğun təcəssümünü tapmalıdır. | 6 |

| | | |
|---|---|---|
| 9 | **Səhnə danışığı metodikası**<br>Magistr pilləsində təhsil alan tələbələr bakalavr təhsilində səhnə danışığı üzrə aldıqları bilik və bacarıqları daha da təkmilləşdirməli, gündəlik təlimlə, çalışmalarla məşğul olmalı, danışıq texnikasını, nitq mədəniyyətini hərtərəfli və dərindən mənimsəməlidirlər.<br>Magistr pilləsində Səhnə danışığı fənninin tədrisi metodikası Azərbaycan teatrının aktyor, rejissor və dramaturqlarının nəzəri fikirlərinə, habelə "Stanislavski sistemi"nə əsaslanır. Bununla bərabər təlim prosesində dilçilərin, teatrşünasların, ədəbiyyatşünasların, psixoloqların və səhnə danışığı müəllimlərinin tədqiqat əsərlərinə və onların təcrübəsinə istinad edilir.<br>"Səhnə danışığı metodikası" fənninin tədrisində səhnə danışığının əhəmiyyəti, danışıq aparatı üzərində işin nəzəri əsasları, səhnə danışığının tədrisində kompleks məşqin əhəmiyyəti, diksiya qüsurlarının düzəldilməsi metodikasının mənimsənilməsi, səs və nəfəs üzərində işin təkmilləşdirilməsi, Azərbaycan dilinin orfoepiyası, səhnə danışığında orfoepiyanın əhəmiyyəti kimi nəzəri və praktiki mövzular əhatə edilir. | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | |
| 1 | ***a) Obrazın plastik həlli***<br>*Obrazın plastik həlli fənnində bədən dili vasitəsi ilə obrazın görüntülü ifadə imkanları ön plana keçir. Tələbə aktyorlar müxtəlif plastika məşqləri, ritm və hərəkət texnikaları vasitəsilə obrazın xarakterini, daxili emosional vəziyyətini və psixoloji xüsusiyyətlərini bədən hərəkətləri ilə tamaşaçıya çatdırmağı əsas şərt kimi qəbul etməlidirlər. Tədris proseisndə obrazın səhnə mizanları vasitəsilə hərəkətlə formalaşdırılması jest və mimikanın dramaturji funksiyası səhnə məkanı ilə bədənin əlaqəsi xüsusi diqqət mərkəzində durmalıdır. Bu proseslə tələbələr obrazın emosional və estetik bütövlüyünü təmin etməyi bacarmalıdırlar.* | 6 |
| | ***b) Səhnədə qılınc təlimi***<br>*Bu fənnin məqsədi səhnədə qurulan döyüş səhnələrinin ifadəli, zəngin və emosional təsirini daha da artırmaq, həmçinin səhnədə döyüş vərdişlərinin, texnikasının inkişaf etdirilərək tədris prosesinin aparılmasına qədər lazım olan bacarıqları aşılayır.* | |
| 2 | ***a) İnklüziv teatr prinsipləri***<br>Bu fənn inklüziv teatr prinsiplərinin sosial funksiyasına əsaslanaraq, müxtəlif fiziki, psixoloji və sosial imkanlara malik insanların yaradıcılıq prosesinə cəlb olunmasını öyrədir. İnklüziv teatr prinsiplərinin əsas qayəsi aktyor sənətini yalnız peşəkar fəaliyyət kimi deyil, həm də cəmiyyətin bütün üzvləri üçün ifadə və ünsiyyət vasitəsi kimi təqdim edir. Bu fənnin tədris prosesi tələbələrə fərqli imkanlara malik insanlarla işləmək, onların potensialını üzə çıxarmaq və yaradıcılıq mühitində bərabər iştirakını təmin etmək bacarığı qazandırır. | 6 |

| | | |
|---|---|---|
| | ***b) Psixotexnikanın əsasları və səhnədə tətbiqi*** <br> *Tələbələrə əsasən materialın psixofiziki metodla işləmək vərdişi aşılanır. Fənnin tədrisi zamanı psixotexnikanın əsaslarının müxtəlif problemlərinin dərindən mənimsənilməsi əsas götürülür. Sxematik olaraq, Psixotexnikanın əsaslarının yaranmasına dair müxtəlif forma və metodlar barədə məlumatların əldə edilməsi vacib şərtlərdən biri kimi götürülür. Psixotexnika elementlərinin köməkliyi ilə "ürək və texnikanın" vəhdət təşkil etməsi nəticəsində aktyorun yaradıcılıq prosesində təbiəti üzvi şəkildə oyanır.* <br> *Sistem əsasında tələbə psixotexnika elementlərinə mükəmməl yiyələnməklə rolu səmimi hisslərlə yaşamağı, yaradıcılıq baxımından başqalaşmağı, tamaşa boyu ifa etdiyi personajın həyatını həqiqi duyğularla ali məqsədə yönəltməyi bacarmalı, üzvi surətdə yaşamağa nail olmaq potensialını artırmalı, K.S.Stanislavski sistemi və M.Çexov yaradıcılığı və psixotexnika nəzəriyyəsini dərindən mənimsəməlidir. Psixotexnika əsaslarının teatr prosesindəki rolunu bilməli, psixotexnikanın əsaslarının mahiyyətini dərk etməli, obraza yanaşma konsepsiyasının həlli yollarını həyata keçirtməyi və təcrübədə ədəbi əsərin təhlilini əsas götürərək, səhnə obrazını işləməyi bacarmalıdır,* | |
| 3 | ***a) Dublyaj texnikası*** <br> *Fənnin tədrisi zamanı magistrantlar ixtisasa mükəmməl surətdə yiyələndiklərini sübut etmək üçün dublyaj işinin sirlərinə yiyələndiklərini praktiki cəhətdən nümayiş etdirməlidirlər. Fənnin tədrisi prosesi mikrofon qarşısında mətnlərin düzgün səslənməsinə aid çalışmalar, kadrarxası oxunun növlərinə aid çalışmalar, dublyaj aktyorunun diksiyası və səs imkanları üzərində iş kimi mövzularla əhatə olunmuşdur.* <br> ***b) Səhnə hərəkəti və texnoloji vasitələr*** <br> *Fənnin tədrisinin məqsədi bakalavr təhsil pilləsində təhsil alan tələbələrin sonrakı mərhələdə, magistr pilləsində mürəkkəb hərəkət formalarının əldə edilməsi, geniş imkanların yaradılmasını özündə ehtiva edir. Magistr təhsil pilləsinin həm də pedaqoji fəaliyyətə uyğunlaşdırılması, tələbələrin tədris prosesinə cəlb edilməsi və dərsin idarə edilməsinə yönləndirilməsi prosesi prioritet məsələlərdən biri kimi ön plana keçirilir.* | 6 |
| | ***Təcrübə*** | |
| 1 | **Elmi-pedaqoji təcrübə** <br> Elmi-pedaqoji təcrübənin tədrisi zamanı tələbələrə təcrübi və nəzəri bilgilər aşılamaq, düzgün üslub və üsulların yollarını öyrətmək vacib şərtlərdən biridir. Eyni zamanda, pedaqoji təcrübənin əsas vəzifəsi magistr tələbələrin daim yaradıcı axtarışlara sövq edilməsi, teatr sənətini geriyə çəkən ştamplarla mübarizə aparmaq, yeni texnologiyalar və son elmi nailiyyətlərlə yönləndirmək məsələsi təşkil edir. Tələbə əsas amil kimi aktyor sənətinin nəzəriyyəsi və təcrübi tərəflərini pedaqoji baxımdan | 6 |

| | | |
|---|---|---|
| | öyrənməli və təcrübənin sonunda bir pedaqoq kimi bakalavr pilləsi üzrə təhsil alan aktyor sənəti kurslarında hər hansı bir mövzuya əsasən açıq dərs zamanı onu tətbiq etməyə qadir olmalıdır. Aktyorun rejissorla işi, seçilmiş pyeslərin aktuallığı, pyeslərdə obrazların xasiyyətnaməsi və səhnə münasibətləri, aktyorun "ev tapşırığı", rol üzərində iş prosesi, seçilmiş əsərin stolarxası oxunuşu, məntiq və psixoloji təhlil təcrübənin iş prosesi kimi nəzərdə tutulur. Aktyor sənətinin əsasları və aktyor sənəti əməli təlim metodikasına nəzəri və təcrübi cəhətdən yiyələnməkdə təcrübə rəhbəri ona nəzarət etməli, eyni zamanda müstəqilliyini məhdudlaşdırmamalıdır. Təcrübəçi K.S.Stanislavski, M.O.Knebel, M. Zaxarov, B.Zaxava, V.Dançenko və s. məşhur rejissor pedaqoqların nəzəriyyələrindən faydalanmalıdır. | |
| **CƏMİ:** | | **90** |

**4. Proqramın və hər bir fənnin təlim nəticələri**

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.
4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.
4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.
4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir

**5. İnfrastruktur və kadr potensialı**

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmək məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir.
Ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı infrastruktur tələbləri nəzərə alınmalıdır:

**Dram teatrı və kino aktyoru ixtisaslaşması üzrə:**

Dram teatrı və kino aktyoru ixtisası üzrə tədrisin keyfiyyətli təşkili üçün akustik tələblərə cavab verən səhnə ilə təchiz edilmiş tədris teatrı, müasir işıq, səs və pərdə sistemləri ilə təmin olunmuş auditoriyalar, kamera qarşısında ifa vərdişlərini inkişaf etdirmək üçün video və audio avadanlıqlarla təchiz edilmiş multimedia studiyaları, aktyor plastikasını və səhnə hərəkətini gücləndirmək məqsədilə güzgülü məşq zalları, səhnə danışığı və diksiya bacarıqlarının formalaşdırılması üçün səsiz və akustik baxımdan uyğunlaşdırılmış otaqlar, fərdi və qrup məşqləri üçün nəzərdə tutulmuş ssenari oxu məkanları, müxtəlif rolların hazırlanması üçün kostyum və qrim sahələri, həmçinin klassik və müasir dramaturgiyaya dair tədris materiallarının, video arxivlərin və metodik vəsaitlərin yer aldığı kitabxana resursları mövcud olmalıdır.

**5.2.** Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. Aktyor sənəti ixtisası üzrə magistratura təhsili almış mütəxəssis təhsil aldığı ixtisaslaşma üzrə aşağıda qeyd olunan sahələr üzrə işləyə bilər.

**Dram teatrı və kino aktyoru:**

Dövlət, bələdiyyə və özəl kinostudiya, teatrlar, radio və konsert salonlarında aktyor, bədii rəhbər, layihə rəhbəri; konsept müəllifi kimi sərbəst layihələrdə (freelance); orta və ali təhsil müəssisələrində pedaqoq; yerli və beynəlxalq festivallarda, müsabiqələrdə təşkilatçı, layihə rəhbəri, radio, televiziya, estrada, professional aktyorluq məktəblərində və s. işləyə bilər.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir

**Əlavə 1**

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**
**Dram teatrı və kino aktyoru**

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| **PTN 1.** Aktyor sənəti ilə bağlı müxtəlif təlim, nəzəriyyə, metod və sistemləri müqayisəli şəkildə təhlil edə biləcək. Bu sistemlərin prinsip və üsullarını praktik fəaliyyətə inteqrasiya edə biləcək və konkret metodlara əsasən obrazın dramaturji və psixoloji quruluşunu formalaşdırmağı bacaracaq. |
| **PTN 2.** Stanislavski sisteminin əsas konseptlərini tənqidi yanaşma ilə analiz edə biləcək. Bu sistemin çağdaş aktyor sənətində tətbiq imkanlarını müqayisəli şəkildə araşdıraraq, öz ifaçılıq qabiliyyətini dərinləşdirəcək. Psixotexniki elementləri inteqrativ şəkildə tətbiq etməyi bacaracaq. |
| **PTN 3.** Müxtəlif janr və üslublarda qurulmuş səhnə əsərlərində fərdi ifaçılıq qabiliyyətini inkişaf etdirəcək. Səhnə hərəkətləri və texnoloji vasitələrdən istifadə etməklə kompleks yaradıcılıq modelləri quracaq və tətbiq edəcək. |
| **PTN 4.** Dramaturji əsərləri peşəkar səviyyədə təhlil edir, süjet xəttini, konfliktləri, xarakterlərin inkişafını və müəllif ideyasını müəyyənləşdirməyi bacaracaq. Konseptual səviyyədə obrazın mənalandırılmasını təmin etməyi və bu prosesi elmi-metodoloji yanaşmalarla əsaslandırmağı bacaracaq. |
| **PTN 5.** Rolun dramatik və emosional strukturunu müxtəlif metod və sistemlər əsasında araşdıracaq. Fərdi obraz interpretasiyası vasitəsi ilə tamaşanın bədii konsepsiyasına töhfə verəcək və dramaturji mətnə yaradıcı yanaşmasını əsaslandırılmış şəkildə təqdim edəcək. |
| **PTN 6.** Kamera qarşısında davranış mədəniyyətinə, müxtəlif oyun texnikalarına yiyələnəcək, mizan və kadrajın tələblərinə uyğun ifadə vasitələrini tətbiq edə biləcək, ifaçılıq texnikasını təkmilləşdirəcək. |
| **PTN 7.** Obrazın psixoloji inkişafını montaj, kadraj və səs dramaturgiyası ilə əlaqələndirə biləcək. Film istehsalı prosesində rejissorla və çəkiliş qrupunun digər üzvləri ilə peşəkar əməkdaşlıq quracaq. |
| **PTN 8.** Davamlı peşəkar inkişafını planlayacaq, yaradıcılıq fəaliyyətini qlobal teatr konteksti ilə əlaqələndirəcək. |
| **PTN 9.** Kollektiv yaradıcılıq prosesində fəal iştirak edəcək, aktyor sənətinin etik prinsiplərinə, peşəkar davranış normalarına və hüquqi-əmək münasibətlərinə əməl edəcək. |
| **PTN 10.** Ali təhsil sistemini, təlim prosesini, tədris metodikasını biləcək. Ali təhsil müəssisəsində ixtisas metodikası ilə bağlı biliklərdən istifadə etməklə bakalavriat səviyyəsində ixtisas fənlərini tədris etməyi bacaracaq. Aktyor sənəti sahəsində elmi-metodiki və pedaqoji səviyyədə təlim və tədris prosesini aparmağı bacaracaq. |
| **PTN 11.** Akademik yazı, danışıq və dürüstlüyün əsaslarını biləcək. Mənbələrdən düzgün istifadə etməklə elmi məqalə, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmağı bacaracaq. Konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışacaq, nəşr etikası bacarıqlarına malik olacaq. |
| **PTN 12.** Layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətlərini, layihədə liderlik, layihə menecerinin vəzifələrini və digər məsələləri biləcək. Layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzular haqqında biliklərə malik olacaq. Layihələrin çevik idarə edilməsi ilə bağlı riskləri düzgün qiymətləndirməyi bacaracaq. "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. haqqında biliklərə malik olacaq və tətbiq etməyi bacaracaq. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Layihələrin idarə olunması fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| Müasir dövrdə aktyor sənətinin ifadə prinsipləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Müasir aktyor sənətinin nəzəri və bədii əsaslarını dərk edəcək. |
| **FTN 2.** Aktyor ifasında fərdi yaradıcılıq bacarığını inkişaf etdirəcək. |
| **FTN 3.** Müasir səhnə üslublarına uyğun ifadə vasitələrindən istifadə edəcək. |
| **FTN 4.** Təcrübi məşğələlərdə yaradıcılıq yanaşmalarını tətbiq edəcək. |
| **FTN 5.** İfa zamanı bədii - estetik düşüncə və peşəkar vərdişlər qazanacaq. |
| **FTN 6.** Komanda işi və tərəfmüqabili ilə qarşılıqlı oyun bacarığını möhkəmləndirəcək. |

| Aktyor sənətinin tarixi və nəzəriyyəsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Aktyor sənətinin tarixi köklərini və inkişaf mərhələlərini öyrədəcək. |
| **FTN 2.** Müxtəlif teatr nəzəriyyələrinin əsas prinsiplərini tələbələrə çatdıracaq. |
| **FTN 3.** Tarixi ənənələrin müasir aktyor sənətinə təsirini göstərəcək. |
| **FTN 4.** Tələbələrdə nəzəri biliklərlə yanaşı praktik tətbiq bacarığı formalaşdıracaq. |
| **FTN 5.** Aktyor sənətində müxtəlif üslub və məktəbləri (klassik, realist, modern və s.) müqayisəli şəkildə təhlil etmək bacarığı formalaşdıracaq. |
| **FTN 6**. Tələbələrdə yaradıcı interpretasiya, səhnə düşüncəsi və obrazın nəzəri əsaslar üzərində müstəqil qurulması bacarığını inkişaf etdirəcək. |

| Tamaşa hazırlığı (dramaturji material üzərində iş, məntiqi və psixoloji təhlil) fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Magistr səviyyəsində müstəqil yaradıcılıq işini planlaşdırmaq və icra etmək bacarığı qazanacaq. |
| **FTN 2.** Tamaşa hazırlığında konsepsiyanı müəyyənləşdirib reallaşdıracaq. |
| **FTN 3.** Dramaturji materialı təhlil edib bədii məqsədlərə uyğun işləyəcək. |
| **FTN 4.** Magistr rəhbəri tərəfindən aktyor işinin koordinasiya edilməsi və yaradıcılıq qrup fəaliyyətinə rəhbərlik edəcək. |
| **FTN 5.** Yekun tamanın elmi praktik əsaslarla müdafiəsinə hazır olacaq. |
| **FTN 6.** Tamaşa hazırlığı üzrə yaradıcı nəticələri nəzəri-praktik meyarlar əsasında təhlil etmək, əsaslandırılmış şəkildə təqdim etmək və peşəkar özünüqiymətləndirmə aparacaq. |

| Müasir teatr cərəyanları (Meyerhold, Brext, Qratovski) fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Stanislavski sisteminin əsas prinsiplərini və strukturunu mənimsəyəcək. |

| |
|---|
| **FTN 2.** Sistem üzrə aktyor hazırlığı və obraz yaradılması mərhələlərini təhlil edəcək. |
| **FTN 3.** Stanislavski sistemini digər aktyor məktəbləri və sistemləri ilə müqayisə etmək bacarığı qazanacaq. |
| **FTN 4.** Teatr təcrübəsində systemin tətbiq imkanlarını qiymətləndirəcək. |
| **FTN 5.** Tələbə aktyor K.S.Stanislavski sənəti məktəbinin metodologiyası ilə yanaşaı çağdaş dünyada bir sıra öndə gedən aktyor sənəti məktəblərinin təcrübəsindən bəhrələnəcək. |
| **FTN 6.** V.Meyerhold, B.Brext, E.Qratovski metodlarına dərindən yiyələnməyə nail olmaq və bunu təcrübədə əyaniləşdirəcək. |

| **Tamaşa hazırlığı (Obraz üzərində iş: Xarakter və obrazların müəyyənləşdirilməsi) fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Xarakterlilik:zahiri və daxili xarakteri tapacaq. |
| **FTN 2.** Obrazın daxili məntiqini və danışıq tərzini səhnədə əyaniləşdirəcək. |
| **FTN 3.** Xarakterin emosional və psixoloji xəttini səhnədə ifadə edəcək. |
| **FTN 4.** Tamaşa prosesində xarakter və obrazların bədii estetik bütövlüyünü qoruyacaq. |
| **FTN 5.** Obrazın dramaturji inkişaf dinamikasını təhlil edərək, onun səhnə boyu transformasiyasını ardıcıl və əsaslandırılmış şəkildə təqdim edəcək. |
| **FTN 6.** Aktyorun fərdi yaradıcılıq imkanlarından istifadə etməklə obrazın orijinal interpretasiyasını formalaşdırıb, onu rejissor konsepsiyasına uyğun şəkildə reallaşdıracaq. |

| **Kino və televiziyada aktyor işinin xüsusiyyətləri fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Kino və televiziya sahəsində nəzəri və təcrübi əsasları mənimsəyəcək. |
| **FTN 2.** Kamera qarşısında təbii, üzvi və inandırıcı davranış nümayiş etdirəcək. |
| **FTN 3.** Kadr, plan və rakurs anlayışlarını aktyor ifaçılığında düzgün tətbiq edəcək. |
| **FTN 4.** Kino və televiziya sahəsindəki texniki şərtlərə uyğunlaşmağı bacaracaq. |
| **FTN 5.** Kino və televiziya layihələrində rolun dramaturji və psixoloji təhlilini apararaq obrazın ekran interpretasiyasını formalaşdıracaq. |
| **FTN 6.** Çəkiliş meydançasında rejissor, operator və yaradıcı heyətlə effektiv kommunikasiya qurmaq və kollektiv yaradıcılıq prosesində peşəkar iştirak edəcək. |

| **Tamaşa hazırlığı (Tamaşanın quruluş planı: ideya, ana xətt və ali məqsədin yoxlanılması, aktyorun yaradıcılıq "başqalaşması") fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Magistr rəhbəri tərəfindən aktyor işinin koordinasiya edərək, yaradıcılıq qrup fəaliyyətinə rəhbərlik edəcək. |
| **FTN 2.** Aktyor tərəfindən səhnə mizanlarını möhkəmləndirəcək. |

| |
|---|
| **FTN 3.** Məntiqi ardıcıllığın ali məqsədə uyğun zəruriliyi. |
| **FTN 4.** Aktyorun səhnədə başqalaşmasının vacibliliyi. |
| **FTN 5.** Yekun tamaşanın elmi praktik əsaslarla müdafiəsinə hazır olacaq. |
| **FTN 6.** Tamaşanın quruluş planının (ideya, ana xətt və ali məqsəd) sistemli şəkildə təhlil edilməsi, bu komponentlər arasında qarşılıqlı əlaqənin müəyyənləşdirilməsi və onların səhnə həllində yaradıcı tətbiqini təmin etmək bacarığı qazanacaq. |

| Səhnə danışığı metodikası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Səhnə danışığı fənninin müxtəlif bölmələrini tədris etməyə nail olacaq. |
| **FTN 2.** Tədris prosesində ixtisas üzrə yaradıcılıq bacarıqlarını aşılamağa və təhlil aparmağa malik olacaq. |
| **FTN 3.** Yaradıcılıq – pedaqoji işlərin təşkilində və idarə olunmasında, bacarıq və vərdişlərə yiyələnəcək. |
| **FTN 4.** Səhnə danışığı üzrə tələbələrin nitq texnikasını (artikulyasiya, diksiya, nəfəs və intonasiya) inkişaf etdirmək məqsədilə müasir metod və texnologiyalardan istifadə etmək bacarığına malik olacaq. |
| **FTN 5.** Səhnə danışığı prosesində mətnin bədii-ifadə vasitələrini təhlil edərək, obrazlı nitqin qurulması və interpretasiyasını pedaqoji baxımdan istiqamətləndirmək bacarığı əldə edəcək. |
| **FTN 6.** Səhnə danışığı üzrə tədris və yaradıcılıq fəaliyyətinin nəticələrini qiymətləndirmək, refleksiya aparmaq və təlim prosesini təkmilləşdirmək üçün elmi-metodik yanaşmalar tətbiq edəcək. |

| İnklüviz teatr prinsipləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** İnklüziv teatr təhsilin prinsiplərini dərk edəcək. |
| **FTN 2.** Müxtəlif yaş və imkanlara malik iştirakçılarla işləmək bacarığı qazanacaq. |
| **FTN 3.** Sosial adaptasiya və inteqrasiyanı gücləndirən üsullarından istifadə edəcək. |
| **FTN 4.** İnklüziv drama məşğələlərini planlaşdıracaq və təşkil edəcək. |
| **FTN 5.** İştirakçıların yaradıcılıq potensialını üzə çıxaracaq və dəstəkləyəcək. |
| **FTN 6.** İnklüziv teatr fəaliyyətinin nəticələrini qiymətləndirəcək, refleksiya aparmaq və təkmilləşdirmə istiqamətləri müəyyənləşdirəcək. |

| Obrazın plastik həlli fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Obrazın plastik iafdə vasitələrinin nəzəri əsaslarını mənimsəyəcək. |
| **FTN 2.** Bədən plastikasını obrazın xarakteri ilə uyğunlaşdırmağı bacaracaq. |
| **FTN 3.** Obrazın daxili psixoloji vəziyyətini hərəkət vasitəsilə ifadə etmək bacarığına yiyələnəcək. |
| **FTN 4.** Obrazın plastik həllində səhnə məkanından, ritm və tempdən məqsədyönlü istifadə etmə bacarığını formalaşdıracaq. |
| **FTN 5.** Müxtəlif plastik ifadə vasitələrini (jest, mimika, bədən kompozisiyası və s.) sintez edərək bütöv və inandırıcı səhnə obrazı yaratmaq bacarığına yiyələnəcək. |

| |
|---|
| **FTN 6.** Yaradılmış plastik obrazı təhlil etmək, əsaslandırmaq və onu elmi-praktik baxımdan təqdim etmək bacarığını inkişaf etdirəcək. |

| Psixotexnikanın əsasları və səhnədə tətbiqi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Psixotexnika prinsiplərini nəzəri və təcrübi səviyyədə mənimsəyəcək. |
| **FTN 2.** Obrazın daxili vəziyyətini bədii üsullarla ifadə etmək bacarığına yiyələnəcək. |
| **FTN 3.** Hərəkət, mimika və səs vasitəsi ilə emosional təsiri artıracaq. |
| **FTN 4.** Müxtəlif səhnə vəziyyətlərinə uyğun psixoloji üsulları tətbiq edəcək. |
| **FTN 5.** Peşəkar ifa prosesində yaradıcılıq və improvizasiya bacarıqlarını gücləndirəcək. |
| **FTN 6.** Səhnədə psixofiziki bütövlüyü təmin edərək diqqət, yaddaş və emosional idarəetmə bacarıqlarını formalaşdıracaq və onları davamlı şəkildə inkişaf etdirəcək. |

| Dublyaj texnikası fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Səsləndirmə zamanı xarakterin tam üzə çıxması üçün müxtəlif personajların hislərini, yaşadıqlarını və digər emosiyalarını tam şəkildə çatdırmağı bacaracaq. |
| **FTN 2.** Səsi personajın mimika və jestlərinə uyğunlaşdırmağı bacaracaq. |
| **FTN 3.** Personajı tanımaq, onun taleyini, tarixçəsini hiss edib onunla vəhdət təşkil edərək rolu özününküləşdirəcək. |
| **FTN 4.** Yaxşı nitq, aydın diksiya və düzgün nəfəs alma prosesinə yiyələnməklə səsin keyfiyyətinə nail olacaq. |
| **FTN 5.** Dublyaj prosesində sinxronizasiyanı (lip-sync) dəqiq təmin etmək, orijinal görüntü ilə səs uyğunluğunu qoruyaraq texniki və bədii bütövlüyü saxlamaq bacarığı əldə edəcək. |
| **FTN 6.** Müxtəlif janrlarda (film, cizgi filmi, sənədli film və s.) dublyaj xüsusiyyətlərini fərqləndirəcək, uyğun üslub və intonasiya seçimi ilə peşəkar səsləndirmə bacarığını inkişaf etdirəcək. |

| Səhnə hərəkəti və texnoloji vasitələr fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| **FTN 1.** Sənətin mahiyyətini dərindən dərk edərək baza hərəkətlərini mənimsəyəcək. |
| **FTN 2.** Səhnədə ifa zamanı mənimsədiklərini uğurla tətbiqi edəcək. |
| **FTN 3.** Hərəkət baxımından müasir səhnə üslublarına uyğunlaşmağı bacaracaq. |
| **FTN 4.** Daha yüksək peşə vərdişlərini ifadə etmək bacarığına yiyələnəcək. |
| **FTN 5.** Tədris prosesində əldə edilmiş bilikləri pedaqoji fəaliyyətə yönəltməyi bacaracaq. |

| |
|---|
| **FTN 6.** Səhnə hərəkətinin icrasında müasir texnoloji vasitələrdən (işıq, səs, multimedia və səhnə qurğuları) yaradıcı və funksional şəkildə istifadə etməyi, onları bədii konsepsiya ilə uyğunlaşdırmağı bacaracaq. |

| **Səhnədə qılınc təlimi fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| **FTN 1.** Döyüş texnikasının mükəmməl istifadə bacarığına malik olacaq. |
| **FTN 2.** Döyüş quruluşlarında təhlükəsizlik texnikasına yiyələnəcək. |
| **FTN 3.** Qılınc təlimində əldə olunan biliklər tədris prosesində pedaqoq kimi həyata keçirməyi bacaracaq. |
| **FTN 4.** Döyüş səhnələrinin qurulması işinin texniki və bədii ifadəsini yarada biləcək. |
| **FTN 5.** Səhnə döyüşü və qılınc texnikası üzrə müxtəlif tarixi və üslubi məktəbləri müqayisəli şəkildə təhlil edərək onların səhnə tətbiqini əsaslandıra biləcək. |
| **FTN 6.** Səhnədə qılınc təlimi prosesində yaradıcı qərarlar qəbul edərək improvizasiya, partnyorla qarşılıqlı əlaqə və səhnə plastikasını peşəkar səviyyədə tətbiq etməyi bacaracaq. |

| **Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5. Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

Əlavə 2

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 | PTN 8 | PTN 9 | PTN 10 | PTN 11 | PTN 12 |
| Ali məktəb pedaqogikası və psixologiya | | | | | | | | x | x | | | |
| Akademik yazı və etika | | | x | | | | | | x | | | |
| Layihələrin idarə olunması | | x | | | | | | | | | | |
| Müasir dövrdə aktyor sənətinin ifadə prinsipləri | x | x | x | x | x | | | x | x | | | |
| Aktyor sənətinin tarixi və nəzəriyyəsi | x | x | x | x | | | | x | x | | | |
| Tamaşa hazırlığı (dramaturji material üzərində iş, məntiqi və psixoloji təhlil) | x | | | x | x | | | | | | x | x |
| İnklüziv teatr prinsipləri | x | x | x | | | | | | | x | | |
| Müasir teatr cərəyanları (Meyerhold, Brext, Qratovski) | x | x | x | | x | | | x | | | | |
| Tamaşa hazırlığı (Obraz üzərində iş: Xarakter və obrazların müəyyənləşdirilməsi) | | | | x | | | | | | | x | x |
| Kino və televiziyada aktyor işinin xüsusiyyətləri | | | | | | x | x | | | | | |
| Psixotexnikanın əsasları və səhnədə tətbiqi | x | x | | | | | | | | | | |
| Tamaşa hazırlığı (Tamaşanın quruluş planı: ideya, ana xətt və ali məqsədin yoxlanılması, aktyorun yaradıcılıq “başqalaşması”) | x | | x | x | x | | | | | | x | x |
| Dublyaj texnikası | | | | | | x | x | | | | | |
| Səhnə danışığı metodikası | | x | x | | | | | | | | | |
| Səhnə hərəkəti və texnoloji vasitələr | | | x | | | | | | | x | | |
| Səhnədə qılınc təlimi | | | x | | | | | | | | | |
| Obrazın plastik həlli | x | x | x | x | x | | x | | | | | |
| Elmi-pedaqoji təcrübə | x | | | | | x | | | | | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Dram teatrı və kino aktyoru kafedrasının müdiri:** ____________ **Gülşad Başxıyeva**

**ADMİU-nun Teatr sənəti fakültəsinin dekanı:** ____________ **Kəmalə Mehdiyeva**